


Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 23-24 (7544-7545) ✲ 1933-cü ildən nəşr olunur ✲ Çərşənbə, 15 may 2019-cu il. ✲ news@qebele-ih.gov.az


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

***10 may***

Müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Prezident İlham Əliyev dahi rəhbərin məzarı önünə əklil qoyub, ulu öndərin xatirəsini ehtiramla anıb.

✲ ✲ ✲

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.

✲ ✲ ✲

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Zığ dairəsi-Heydər Əliyev Beynəlxalq Aeroportu avtomobil yolunun 28-ci kilometrliyində salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə kampaniyasında iştirak ediblər.

***9 may***

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında görkəmli bəstəkar, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, Dövlət və Heydər Əliyev mükafatları laureatı Arif Məlikovla vida mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

✲ ✲ ✲

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Yasamal rayonunda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin və ilk DOST mərkəzinin inzibati binasının açılış mərasimində iştirak ediblər.

✲ ✲ ✲

İkinci Dünya Müharibəsində faşizm üzərində qələbənin 74-cü ildönümü münasibətilə Bakıda təntənəli mərasim keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

***7 may***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qobustan-Poladlı avtomobil yolunun açılışında iştirak ediblər.

✲ ✲ ✲

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Qobustan regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsinin açılışında iştirak ediblər.

## İlham ƏLİYEV:

*Azərbaycanda sabitliyin mənbəyi Azərbaycan vətəndaşlarıdır, onların fədakarlığıdır, onların bizə göstərdiyi dəstəkdir. Biz bu dəstəyə arxalanaraq böyük işlər görürük.*

# Xalq-iqtidar birliyi inkişafımızın mənbəyidir



İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə milli maraqlara uyğun reallaşdırdığı siyasət sayəsində respublikada ictimai-siyasi sabitlik, dayanıqlı və dinamik inkişaf, xalq-iqtidar birliyi bərqərar olub. Dərin iqtisadi islahatlar nəticəsində mühüm uğurlar əldə edilib, minimum əməkhaqqı, əmək pensiyaları, bütün növ sosial müavinətlər, təqaüdlər əhəmiyyətli dərəcədə artırılıb. Enerji təhlükəsizliyi milli təhlükəsizliyin tərkib hissəsi kimi diqqətdə saxlanılıb. Müasir texnologiyalara və geniş ixrac imkanlarına malik sənaye parkları və məhəllələrinin yaradılmasına xüsusi əhəmiyyət verilib. Ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə aqrar sahədə ardıcıl olaraq dövlət dəstəyi tədbirləri davam etdirilib.

İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft ixracının stimullaşdırılması istiqamətlərində ciddi addımlar atılıb. Ölkənin valyuta ehtiyatları bu ilin əvvəlinə 45 milyard dollara bərabər olub. Xarici dövlət borcu 22,8 faizdən 19 faizə düşüb. Ötən il xarici ticarət dövriyyəsində 8 milyard dollarlıq müsbət saldo yaranıb.

Bu dövrdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli xarici siyasətimizin başlıca prioriteti olaraq qalıb və münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilə biləcəyi davamlı şəkildə dünya ictimaiyyətinin, həmçinin beynəlxalq təşkilatların diqqətinə çatdırılıb. İkitərəfli və çoxtərəfli formatlarda qəbul olunan sənədlərdə dövlətimizin suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstək ifadə edilib.

Azərbaycan Prezidentinin iştirakı ilə son 16 il ərzində çoxsaylı mühüm layihələr reallaşıb. Cənub Qaz Dəhlizinin açılışı Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında ölkəmizin vacib rolunu bir daha nümayiş etdirib. Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı aparılan uzunmüddətli və gərgin danışıqlar, nəhayət, uğurla yekunlaşıb və dövlətimizin maraqlarını özündə əks etdirən Konvensiya imzalanıb.

Türkiyədə illik istehsal gücü 10 milyon ton olan "Star" neft emalı zavodu istismara verilib. Ötən ilin sentyabr ayında isə orbitə buraxılan ikinci telekommunikasiya peyki - "Azərspeys-2" bu sahədə xidmətlərin və yayımın əhatə dairəsinin genişləndirilməsini, xidmətlərin çeşidinin, satış həcminin artırılmasını təmin edib.

Bütün bu və ya digər uğurlar, həmçinin həyata keçirilən müdrik xarici siyasət Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artmasına öz müsbət təsirini göstərib, ölkəmizi regionun və dünyanın aparıcı qüvvəsinə, əsl söz sahibinə çevirib. Respublikamızla ikitərəfli əməkdaşlıqda maraqlı olan dövlətlərin sayı artıb.

Fransanın "Opinion Way" şirkətinin bu yaxınlarda keçirdiyi sorğuda da dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən reallaşdırılan təkmil islahatlara xalqın dəstəyi öz ifadəsini tapıb. Azərbaycanda xalq-iqtidar birliyinin getdikcə güclənməsi diqqətə çatdırılıb.